***UOT-811.512.162***
***Səhifə: 5-11***
*https://doi.org/10.59849/2663-8967.2025.1.5*

***Sayalı Sadıqova***
***AMEA, Nəsimi adına Dilçilik İnstitutu***
***filologiya elmləri doktoru, professor***
***sayalisadigova@yahoo.com***

# TERMİNOLOJİ SİSTEMDƏ DEFİNİTİVLİK VƏ DEFİNİTİVLƏŞMƏ

## XÜLASƏ

Məqalədə terminoloji sistemdə definitivlik və anlayişin definitivləşmə prosesi nəzəri baxımdan zəngin faktlarla araşdırılmışdır. Qeyd edilir ki, hər bir sahə ilə bağlı nəzəri məsələlərin müəyyənləşdirilməsində terminlərə verilən tələblər, onların anlayışı düzgün ifadə etməsi və definitivləşmə prosesi qarşılıqlı əlaqədə təyin edilir. Definitivləşmə prosesində terminoloji sistemdə anlayışın dərki və nomenləşməsi, terminlərin yaranaraq müəyyən sahədə xüsusi funksiya daşıması, onların funksional-semantik sahə prizmasından mahiyyəti, işlənmə sərhədi, dil sistemindəki yeri təhlil olunur. Terminoloji sistemə daxil olan və müəyyən sahə ilə bağlı olan anlayışın definitivləşməsi onun mahiyyətinin düzgün dərkinə imkan verir. Terminin əsas əlamətləri əsasında tərifin yaranmasına, onu təşkil edən məna və məzmunu səciyyələndirən xüsusiyyətlərin təyini əsasında definisiyanın yaranmasına imkan verir. Bu nəzərə alınaraq elm sahələrində işlənən hər bir termini başqa terminlərdən fərqləndirən əlamətləri, diferensial təzahürlərin dəqiqləşməsi əsasında tərifin, yaxud definisiyanın verilmə yolları şərh olunur. Diferensial əlamətləri əks etdirən təzahürlərin yığımı hər bir məfhumun sərhədlərini cızır və məfhumlar içərisində yerini müəyyənləşdirməyə imkan verir. Terminoloji sistemdə məfhumun, anlayışın terminlə ifadə olunması, onların definitivləşmə prosesi və əsas xüsusiyyətləri müəyyənləşdirilmişdir.

***Açar sözlər:*** *terminologiya, anlayış, definitiv, definisiya, məfhum, termin.*

**Giriş:** Dilin terminoloji sistemi xüsusi bir sistem kimi qəbul edilir, onu təşkil edən terminoloji vahidlərin strukturu qurulur, məzmun və ifadə planı müxtəlif aspektdən şərh edilir və elm sahələri ilə qarşılıqlı əlaqələri öyrənilir. Terminoloji sistemdə məfhumun, anlayışın terminlə ifadə olunması, onların definitivləşmə prosesi və əsas xüsusiyyətləri müxtəlif istiqamətdə araşdırılır. Bu baxımdan definitivlik bir proses kimi sahə daxilində dilçilikdə geniş elmi şərhini gözləyən aktual problemlər sırasına daxildir. Çünki hər bir sahə ilə bağlı nəzəri məsələlərin müəyyənləşdirilməsində terminlərə verilən tələblər, onların anlayışı düzgün ifadə etməsi və definitivləşmə prosesi qarşılıqlı əlaqədə təyin edilir. Definitivləşmə prosesində terminoloji sistemdə anlayışın dərki və nomenləşməsi, terminlərin yaranaraq müəyyən sahədə xüsusi funksiya daşıması, onların funksional-semantik sahə prizmasından mahiyyəti, işlənmə sərhədi və dil sistemindəki yerinin müəyyənləşdirilməsi nəzərdə tutulur. Terminoloji sistemə daxil olan və müəyyən sahə ilə bağlı olan anlayışın definitivləşməsi onun mahiyyətinin düzgün dərkinə imkan verir. Terminin mahiyyətini onun müəyyən sahədə daşıdığı definitivlik funksiyası təyin edir. “Müxtəlif dil səviyyələrinə aid ifadə vasitələrinin vahid sistemdə nəzərdən keçirilməsi müasir dilçilikdə funksional-semantik yanaşma metodu ilə bağlıdır. Belə yanaşmada “funksiya” termini funksional-semantik sahə nəzəriyyəsi ilə bağlı olaraq daha geniş şəkildə anlaşılır” [10,s.56]. Dilin lüğət tərkibinin xüsusi layını təşkil edən terminoloji sistemdə fərqli xüsusiyyətə və fərqli mənaya

malik terminlər müxtəlif semantik mənaya əsasən qruplaşdırılır. Yəni “sahə onun elementlərinin yerinə yetirdiyi funksiya əsasında qurulduqda onun funksional prinsip üzrə formalaşması qəbul edilir. Həm semantik, həm də funksional prinsip üzrə sahəni formalaşdırmaq olar. Bu halda sahə funksional-semantik sahə adlanır”[1, s.273].

Terminlərin sərhədinin və mahiyyətinin dərk edilməsində onun xüsusi funksiya daşımasını və müəyyən terminoloji sahədə olmasını təyin etmək zərurəti yaranır. Ona görə də terminlərin yaranmasında “mənadan formal struktura” qədər onların yaranma qaydaları müxtəlif prizmadan müəyyənləşdirilir. Xüsusilə terminoloji sistemdə terminlərin funksiyalarının təyini onun aid olduğu sahə ilə təyin edilir. “Sahə nəzəriyyəsi qrammatik kateqoriyaları təbii nitq prosesində öyrənməyə imkan verir. Ünsiyyət zamanı qrammatik, leksik və fonetik vasitələr bir-biri ilə qarşılıqlı əlaqə və təsirdə olur. Ünsiyyət şəraitindən asılı olaraq, bir vasitə digərini tamamlayır, gücləndirir və ya əvəz edir. Sahə nəzəriyyəsi dilin funksiya ümumiliyinə görə, qarşılıqlı təsirdə olan müxtəlif səviyyəli vahidləri öyrənir” [3,s.9]. Buradan aydın olur ki, ayrı-ayrı terminoloji sistemdə terminlərin aid olduğu funksional-semantik sahələrdə birləşməsi onların spesifik xüsusiyyətləri arasında əlaqələrin mexanizmlərini, qanunauyğunluqlarını aşkar edir. Bir anlayış kimi funksional-semantik sahə dil hadisələrinə funksional yanaşmada dil vahidlərini onun yalnız daxili quruluşu baxımından deyil, həm də işlənmə sahəsi və digər dil vahidləri ilə əlaqələri baxımından da öyrənməyə imkan verir. Bu yanaşma dil vahidlərinin daşıdığı funksiya prosesində onların işlənmə xüsusiyyətlərini və qanunauyğunluqlarını dolğun, obyektiv şəkildə sistem daxilində təyin edilməsinə şərait yaradır. Sahə anlayışının təyini terminin daxil olduğu sahə oblastını təyin edir. A. B. Superenskaya yazır: “Sahə terminin mövcud olduğu özünəməxsus oblastdır. Bu oblast daxilində termin onu səciyyələndirən əsas cəhətləri əks etdirir. Oblast süni şəkildə təyin edilir və kənar təsirlərdən qorunur”[15,s.67]. Terminin daxil olduğu sahənin təyini üçün müxtəlif sahələrə aid terminlərin fərqləndirmə sərhədləri dəqiqləşdirilməli və xüsusiyyətlər müəyyənləşdirilməlidir. M. İsmayılova yazır: “Sahə anlayışının təyini zamanı terminin verilmiş oblast daxilində onu səciyyələndirən bütün cəhətləri ( monosemiya, üslubu neytrallıq, distributiv imkanlar və s.) kəsb etməsi haqqında müddəa tam aydındır və onun tərifdə işlədilməsi izafidir. Yəni sahə terminə görə müəyyənləşdirilmir. Hər hansı yeni elmi sahənin yaranması üçün müəyyən terminlərin meydana gəlməsi zəruri şərt sayıla bilməz”[6,s.10]. Lakin nəzərə almaq lazımdır ki, termin hər bir anlayışın ifadə formasıdır. Sahəni təşkil edən anlayışlar termin vasitəsi ilə dərk olunur. Ona görə də yaranan elm sahəsi müəyyən terminlər sistemi əsasında təyin olunur. Elm sahəsi onun obyekti, predmeti ilə bağlıdır və buna uyğun terminoloji sistem yaranır və elm sahəsinin inkişafı onun terminologiyasında əks olunur. Sahənin yaranmasında anlayışla termin arasında əlaqələr, qanunauyğunluqlar əsas götürülür. Bu baxımdan anlayışı təyin edən və onun ifadə forması olan terminin definitiv funksiyası sahə daxilində təyin edilir. Definitivlik anlayışına tədqiqat əsərlərində müxtəlif cəhətdən yanaşılır. Definitivlik və ona verilən tələblər probleminə B.Çobanzadə əsas məsələ kimi diqqətə çatdırmışdır. Xüsusilə türk dillərində definitivlik və onun əsas xüsusiyyətlərinə ümumi dilçilik aspektindən yanaşılaraq müəyyənlik və qeyri-müəyyənlik baxımından şərh edilir. Anlayışın əsas əlamətlərinin müəyyənləşdirilməsi və ona verilən tələblər təhlil edilir. Rus dilçiliyində *ilk dəfə terminin definitiv tipi haqqında geniş tədqiqatlar D.S.Lotte tərəfindən aparılmışdır. İki komponentli, üç komponentli terminlərin qurulma tiplərini zəngin dil faktları ilə şərh etmişdir.* P.B.Veselov isə devinitiv terminlərin struktur tiplərini müəyyənləşdirərək onların əsas xüsusiyyətlərini təhlil etmişdir”[12,s.2].

Azərbaycan dilçiliyində terminologiya ilə bağlı tədqiqatlar geniş olsa da, terminlərin əsas xüsusiyyətləri müəyyənləşdirilən zaman definitivləşmə prosesi tədqiq olunmamışdır. M.Qasımovun tədqiqatlarında terminlər obyektiv gerçəkliyin hadisələri və onlar haqqındakı anlayışların adları kimi xarakterizə edilir. H.Həsənovun, S.Xəlilovanın və başqalarının terminologiya ilə bağlı tədqiqatlarında termin və onun xüsusiyyətləri ümumi şəkildə şərh olunsa da definitivləşmə anlayışı haqqında heç bir məlumata yer verilmir. A.Həsənovun araşdırmalarında definitivlik müəyyənlik və qeyri-müəyyənlik kateqoriyaları ilə eyniləşdirilmiş, təsdiq və inkar, təsirlik və təsirsizlik kateqoriyaları və onların xüsusiyyətləri verilmişdir. Bu kateqoriyaların bir-biri ilə qarşılıqlı əlaqədə, vəhdətdə olduğu geniş dairədə müxtəlif vasitələrlə təzahür etdiyi şərh

olunsa da müəyyənlik və qeyri-müəyyənlik anlayışlarının özünün mənası təyin edilmir. Əslində isə "definitivlik" anlayışı ilkin olaraq müəyyənetmə, təyinetmə mənasını ifadə edərək anlayışi müəyyənləşdirən müstəqil kateqoriyadır. Anlayışın əsas xüsusiyyətləri dildə müəyyənlik və qeyri-müəyyənlik əlamətləri ilə təyin edilir. Yəni, müəyyənlik və qeyri-müəyyənlik anlayışları definitivlik termininin ifadə etdiyi məna ilə bərabər gəlir. Definitivlik anlayışının dərkində, onun mahiyyətinin açılması üçün həmin sözün lüğəti mənalarının aydınlaşdırılması mühüm əhəmiyyətə malikdir. Anlayışın tamamilə müəyyənləşdirilməsi, dəqiqləşdirilməsi definitivlik adlanır. Ona görə də tamamilə müəyyənləşdirmə, dürüstləşdirmə, dəqiqləşdirmə əlamətləri terminlərə şamil edilir, müəyyənlik və qeyri-müəyyənlik kateqoriyası ilə eyniləşdirilir. Əlbəttə müəyyənlik və qeyri müəyyənlik kateqoriyası geniş məna ifadə edir. Bu kateqoriyanın yerinə yetirdiyi funksiya da birbaşa anlayışın təyin edilməsi ilə bağlıdır. Definitivlik termini də təyin etmə anlayışı ilə bağlıdır və sahə terminologiyasında anlayışın təyin edilməsi və nominasiyanı özündə əks etdirir. Hər bir sahədə anlayış dəqiq olanda, onu qavramaq da asan olur, tədqiqat prosesində fikirlərin tez və dəqiq başa düşülməsinə imkan yaradır. Dilçilikdə definitivləşmə prosesi, terminin əsas əlamətləri əsasında tərifin yaranmasına, onu təşkil edən məna və məzmunu səciyyələndirən xüsusiyyətlərin təyini əsasında definisiyanın yaranmasına imkan verir. Yəni, elm sahələrində işlənən hər bir termini başqa terminlərdən fərqləndirən əlamətləri mövcuddur. Məsələn, riyaziyyatda, fizikada, düstur, teorem, aksioma, funksiya və s. məfhumları ilkin yaranma prosesində müəyyən bir təsəvvürün bazasında formalaşmışdır. Bu təsəvvür bazasında hər hansı bir anlayışda olduğu kimi, bu məfhumların tədrici inkişafı hadisənin diferensial təzahürlərinin dəqiqləşməsi əsasında tərifini, yaxud da izahını tələb edir. Diferensial əlamətləri əks etdirən təzahürlərin yığımı hər bir məfhumun sərhədlərini cızır və məfhumlar içərisində yerini müəyyənləşdirməyə imkan verir. Məsələn, dilçilikdə "idiom" elə ifadələrə deyilir ki, söz birləşməsi quruluşuna malik olsun, komponentlərinin leksik mənasından asılı olmayaraq, söz birləşməsi təşkil edən sözlərin hamısı birlikdə bir məna ifadə etsin, quruluşca və mənaca parçalanmasın"[5,s.44].

Terminə verilən bu definisiyada, yəni "idiom" anlayışı və onun əsas əlamətləri haqqında təsəvvürlər dəqiqləşdirilərək sözlərin birləşməsindən yaranması, tam məna ifadə olunması, bu mənanın onun tərkib hissələrinin nominativ mənaya malik olması, leksik və sintaktik cəhətdən parçalanmamasını özündə əks etdirməsi və məfhumların termində ifadə olunması əlamətləri onun sərhədlərinin təyinində əsas götürülmüşdür. A.Qurbanov yazır: "Sözün daxili formasına görə tərif (definisiya) "sərhədlərin müəyyənləşdirilməsi, göstərilməsi"- definis mənasını verir. Təyin sözü latınca definitio, definio sözündən olub sərhədlərə alma deməkdir" [9,s.15].Yəni terminin təyinində onun əlamətlərinin müəyyənləşdirilməsi əsas götürülərək işlənmə sərhədləri dəqiqləşdirilir.

Təhlillərdən aydın olur ki, bütün elm sahələrində terminin təyin olunmasında onun məna sərhədləri, anlayışların təyini əsas hesab edilir. Hər bir anlayışa verilən definisiyalar müəyyənləşdirilir. Bu baxımdan definitivlik anlayışı mürəkkəb fəlsəfi-linqvistik hadisədir. "Definitiv" termini latın dilindəki "definitio" sözündən götürülmüşdür. Mənası hər hansı bir anlayışın ən mühüm əlamətlərini özündə saxlayan qısa məntiqi təyinidir. Definitivliyin əsas əlamətlərini ümumiləşdirərək belə xarakterizə etmək olar: *Məna və məzmun quruluşlu obyektin, hər hansı bir anlayışın (ən mühüm) zəruri və kafi əlamətlərini özündə saxlayan, qısa məntiqi təyini olan terminlərə definitiv terminlər deyilir.*

Terminin əsas mahiyyətini də onun zəruri və kafi əlamətlərinin təyin edilməsi təşkil edir. Bu baxımdan terminin başlıca xüsusiyyəti elmi dilin anlayışlarını əhatə etməsidir, onunla uzlaşa və uyğunlaşa bilməsidir. Termin, hər şeydən öncə, yaranan hər bir anlayışın dil işarəsidir və müəyyən mənaya malikdir. Buna görə də definitivləşmə deyərkən hər hansı bir terminin "sözdən fərqli müxtəlif elm sahələrində tam şəkildə müəyyənləşdirilmiş, dürüstləşdirilmiş hər hansı bir anlayışa müvafiqliyi" nəzərdə tutulur" [11,s.117]. Deməli, adi sözün, söz birləşməsinin, onun mənaca xüsusiləşməsi hər hansı bir sahəyə xüsusi təyinat alması, yəni termin kimi formalaşması üçün zərurət təşkil edir.

Bütün elm sahələrində anlayışlar təfəkkürdə denotatın elmi qavranışı və dərki ilə bağlıdır. Bu prosesdə onu adlandırmaq sözün elmi refleksiyası yolu ilə qəbul olunur. Məsələn, "depozit"

anlayışı haqqında aşağıdakı xüsusiyyətlər təyin olunmuşdur:– 1. Banklara və əmanət kassalarına qoyulan əmanətlər. 2. Müştərilərin əmanətlərinin yerləşdirdiyi banka müəyyən tələblərinin mövcudluğunu təsdiq edən bank kitablarında qeydlər. 3. Kredit idarələrinə saxlanmaq üçün verilən qiymətli kağızlar (səhmlər və istiqrazlar). 4. Vergilərin, yaxud da gömrük rüsumlarının ödənilməsi üçün gömrük idarələrinə verilən maddi dəyərlər (adətən, pul və ya qiymətli kağızlar). 5. Hesablama Palatasına müqavilə ilə qeydiyyatdan keçən zaman müştərilər tərəfindən birjanın üzvü tərəfindən brokerə ödənilməli olan sabit məbləğin və ya fyuçers müqaviləsinin ümumi dəyərinin şərtlənmiş bir hissəsi olan pul məbləği" [8,s.50].

Terminlərin definitivləşməsi prosesində anlayışın sərhədləri dəqiqləşdirilərək başqa anlayışlardan fərqləndirilir. Denotatı adlandırmaq üçün onların fərdi xüsusiyyətləri ilə yanaşı, onlara xas olan ümumi və fərdi cəhətləri də nəzərə alınaraq, anlayışın ümumi və mühüm əlamətləri təyin edilir. Məsələn, "qapalı bir xətdən ibarət çevrə anlayışının mühüm əlaməti onun müstəvi üzərində bir nöqtədən eyni uzaqlıqda duran nöqtələrdən ibarət olmasıdır". Burada çevrə termininin əsas cəhətləri təyin edilərək başqa anlayışlardan fərqləndirilir. Məhz buna görə də anlayışın təyinində hər elmin özünəməxsus əlamətləri, xüsusiyyətləri əsas götürülür.

Definitivləşmə prosesində anlayışın əlamətlərinin terminin strukturunda öz əksinin tapması onun "məna" və "məzmun" baxımından bir tam halında formalaşmış dil vahidinin yaranmasına imkan yaradır. Elmin bir sıra sahələrinin, o cümlədən fizika, kimya, informatika, riyaziyyat, elektronika, radiologiya terminlərinin nümunəsində sübut olunmuşdur ki, anlayışa ekvivalent olan termin daxilində anlayışın əlamətinin qovuşması mümkündür. Bu qovuşma əsasında yaranan terminlər xüsusi funksiya daşıyaraq müxtəlif elm sahələrində işlənərək anlayışın ən mühüm əlamətlərini özündə əks etdirir. Dəqiq elm sahələri, xüsusilə də riyaziyyat, fizika, kimya terminləri definitiv tipli terminoloji sistemlərin etalonu sayılır və hər bir anlayışın təyini kimi qəbul edilə bilir. Məsələn, "Dairənin vətərlə ayrılmış hissəsi seqment adlanır" [7,s.160]; İki kəmiyyətdən birinin bir neçə dəfə artması (azalması) ilə digər kəmiyyət də o qədər dəfə azalarsa bu kəmiyyətlərə tərs mütənasib kəmiyyətlər deyilir. Çevrə öz daxili hissəsi ilə birlikdə dairə adlanır. Dairənin iki radius arasında qalan hissəsinə sektor deyilir" [7,s.160]. Riyaziyyat sahəsində bu terminlər terminoloji sistemdə anlayışlarla bilavasitə uzlaşaraq tərif qazanmış və elmi anlayışın məzmununu tam ifadə etmişdir. Elm sahələrində bu tipli definitiv anlayışlar sisteminin formalaşması bir çox spesifik xüsusiyyətlərinə görə dilin bütövlükdə terminoloji sistemində özünəməxsus yer tutur.

Elmin müxtəlif sahələrinin terminoloji makrosistemin definitivliyinin səciyyəsinə gəlincə isə burada həmin sistemi təşkil edən terminlərlə elmi anlayışlar arasında münasibətin sistematikliyi əsas götürülür. Yaranan yeni elmi anlayışlar daxil olduğu sahə sistemi ilə birbaşa əlaqə əsasında gerçək təcrübə zəminində tərif qazanaraq elmi anlayışların məzmununu şərh edir, onun sərhədlərini təsbit edir. Anlayışın definitivləşməsinin ilkin mərhələsində anlayışlar sistemində semantik bağlılıq məsələsinin də terminin səciyyələndirilməsində müəyyən rolu vardır. Çünki elmi anlayışlar elmi dilin sistemi ilə bağlıdır. Termin də funksional cəhətdən həmin əlamətlərin daşıyıcısına çevrilir. *Dildə mövcud olan terminlər əşyaların, proseslərin, obyektiv gerçəkliyin, hadisələrin və bunlari ifadə edən anlayışların adlarıdır.* Definitivlik də anlayışın müəyyənlik və qeyri-müəyyənlik əlamətlərini təyin edir. S.A.Sokolov definitivlik kateqoriyasında anlayışın sərhədlərini genişləndirərək terminlərə keçməsi prosesini və termin definisiyasının səciyyəvi cəhətlərini əsas götürmüşdür [14,s.32].

Bu baxımdan anlayış bir termin kimi terminoloji sistemdə çıxış nöqtəsi sayılır və müəyyən terminoloji leksikanın formalaşması və dəqiq təyin olunmasında onun adlandırılmasının vacibliyi əsas götürülür. Anlayışın əsas cəhətinin təyinolunma prosesi onun mənasının müəyyənləşdirilməsinə aparan yoldur. Anlayış hər bir elm sahəsində obyektlə, predmetlə bağlı olan məfhumla əlaqəli olub, əşya və hadisələrin ümumi və başlıca xassə və əlamətlərini əks etdirən ideya kimi səciyyələnir. M.Qasımov terminlə anlayışın genetik cəhətdən əlaqəsini qeyd edərək yazır ki, "tədqiqatçılardan bir qrupu terminin anlayışdan əvvəl, digər qrupu isə, əksinə, anlayışın termindən əvvəl meydana gəldiyini qeyd edir. Əslində, termin həm anlayışın yaranması vasitəsi, həm də onun ifadə formasıdır. Terminlə anlayış eyni vaxtda, bir-biri ilə sıx qarşılıqlı əlaqə şəraitində meydana gəlir. Terminlə anlayış arasında hadisə və mahiyyət, forma və məzmun əlaqəsi mövcuddur"

[4,s.11].

Əlbəttə anlayış ilkin yaranır və anlayış əsasında termin yaranır. "Anlayış"ın tərifi müəyyənləşdirilərək yazılır ki, o, obyektiv gerçəkliyin predmet və hadisələrinin ümumi və əhəmiyyətli əlamətlərinin ifadə edildiyi fikrə deyilir. Anlayışlar sistemi (elm və texnikanın müəyyən sahəsinə mənsub olan bir-biri ilə əlaqədar anlayışların məcmusu), terminologiyada anlayışların təsnifini, anlayışların məzmununu (anlayışın əsaslı əlamətlərinin məcmusu), anlayışın həcmini (müəyyən anlayış tərəfindən əhatə olunan predmet, hadisə və ya anlayış) və s. təşkil edir. Terminlə anlayış arasındakı məntiqi əlaqələrin mövcudluğu terminoloji sahənin digər elementləri ilə sistem yaratmaqla yanaşı nominativ funksiyanın təyinində də mühüm rol oynayır. V.Adilov yazır ki, terminin əsas funksiyası nominativ funksiyadır. Funksional cəhətdən termin həm də definitiv funksiyanı yerinə yetirir" [2,s.54].

Anlayışın definitivləşməsində onun əsas zəruri əlaməti aparıcı yerlərdən birini tutur. Əlamət dedikdə, müəyyən anlayışlar sistemində onu təşkil edən sahənin predmet, hadisə və anlayışlarının digər predmet, hadisə və ya anlayışla olan əlaqəsi, yaxud onlardan fərqləndirilməsi nəzərdə tutulur. Definitivlik müxtəlif sistemli dillərdə universal linqvistik kateqoriya hesab edilərək müəyyən dildə yaranan terminlər üçün xarakterik xüsusiyyət hesab edilir. R.T.Sarkulova yazır: "definitivlik türk dillərində definitiv terminlərin yaranma prosesi adlı araşdırmanın meydana çıxmasına geniş imkanlar açmışdır, daha doğrusu, definitiv terminlərin mahiyyətini başa düşməyi, anlamağı təmin etmişdir" [13,s.49].

Definitivlik dilin ayrı-ayrı səviyyələrində müxtəlif vasitələrlə gerçəkləşsə də terminoloji sistemdə anlayışın təyini prosesində aydın olur ki, sözlərin məna ilə qarşılıqlı əlaqəsi terminlə nomen arasında münasibəti aydınlaşdırmağa imkan verir. Terminoloji sistemdə terminoloji vahidlərin fərqləndirilməsində xüsusi ayrılmış predmet əsas götürülərək onun təyini təsəvvür edilən anlayışın əşyaya münasibətini təyin edir. Anlayışın əşyaya münasibəti leksik-semantik xüsusiyyətlərin müəyyənləşdirilməsində daha qabarıq müşahidə olunur. Ona görə də anlayışın leksik-semantik baxımdan təyin edilməsi terminləşmənin başlıca xüsusiyyətlərindən biridir. Yəni anlayışın definitivlik sırasına daxil olunması və anlayışı təyin edən mənalar toplusu leksik-semantik definitivlik adlanır. Leksik-semantik definitivlik anlayışı terminin həm nominativ, həm də nominativ-definitiv dil vahidlərini özündə əks etdirir. Təhlillərdən aydın olur ki, definitivlik müxtəlif anlayışları əks etdirən, elmi mahiyyət daşıyan terminlərin əsas xarakterik xüsusiyyətinin təyin olunma prosesidir. Buna görə də terminin adlandırılmasında, anlayışın təyinində onun əlamətləri əsas götürülərək definitiv funksiyası müəyyənləşdirilir.

**Ədəbiyyat siyahısı**


1. Abdullayeva V. Müxtəlifsistemli dillərdə polineqasiya və mononeqasiya tiplərinin variativliyi (alman və Azərbaycan dillərinin materialları əsasında), filologiya üzrə fəlsəfə doktoru dis., Bakı, 2016. – s.273.
2. Adilov V.Z. Termin və söz // Azərbaycan terminologiyası problemləri, – Bakı: APİ-nin nəşri, – 1988. – s.54-55.
3. Aslanov A.Ə. Müasir Azərbaycan dilində qrammatik kateqoriyalar (mənsubiyyət, inkarlıq, kəmiyyət), Bakı: ADU, 1985, s.9.
4. Azərbaycan dili terminologiyasının əsasları / M.Qasımov. – Bakı: Elm, – 1973. – , s.11.
5. Bayramov H. Azərbaycan dilinin frazeologiyasının əsasları, B Maarif, 1979 s.44.
6. İsmayılova M. Azərbaycan dili terminologiyasının linqvistik sahələri, B, "Ozan" 1997, s.10.
7. İsmayılova S., Hüseynova A. Riyaziyyat dərsliyi, 6-cı sinif, Bakı, 2012, s.160.
8. İzahlı yeni terminləri lüğəti, Bakı, Elm, II. 2016, s. 50.
9. Qurbanov A. Azərbaycan dilinin onomalogiyası / A.Qurbanov. – Bakı: Maarif, – 1988. – s.15

10. Tahirov İ.M. Azərbaycan və ingilis dillərində zaman kateqoriyası / İ. M. Tahirov. – Bakı: Nurlan, – 2007. – s.56.
11. Веселов П.В. К вопросу о типологии терминов // СПЯНТИ, – 1971. – с. 117.
12. Веселов П.В. Структура терминов дефинитивного типа, автор. дис. ... кандидата филологических наук , Москва, 1971, s.2.
13. Саркулова Р.Т. О терминологической лексике современного казахского языка // Вопросы тюркского языкознания, – Алма-Ата: Наука, – 1985. – с. 49.
14. Соколов А.И. Внутренная речь и мышление / А.И.Соколов. – Москва: Просвещение, – 1968. – s.32-41.
15. Суперанская, Общая теория имени собственного. М., Наука, 1973. səh.67.

***проф. Саяли Садыгова***

***Дефинитивность и понимание в биологической системе процесс дефинитации***

***Резюме***

В статье исследованы факты, богатые с теоретической точки зрения процессом дефинитации и дефинитации понятия в терминологической системе. Отмечается, что требования к терминам при определении теоретических вопросов, относящихся к каждой области, определяются во взаимодействии с их правильным выражением понятия и процессом дефинитивизации. В процессе дефинитации анализируются интерпретация и номенклатура понятия в терминологической системе, возникновение и особая функция терминов в определенной области, их сущность с точки зрения функционально-семантической области, границы развития и места в языковой системе. Определение понятия, входящего в терминологическую систему и связанного с определенной областью, позволяет правильно понять ее сущность. Это позволяет сформировать определение на основе основных признаков термина, а также на основе определения характеристик, характеризующих его значение и содержание. Учитывая это, интерпретируются признаки, отличающие каждый термин, используемый в научных областях, от других терминов, способы определения или определения на основе уточнения дифференциальных проявлений. Набор проявлений, отражающих дифференциальные признаки, позволяет вычеркнуть границы каждого понятия и определить его местоположение внутри понятий. В терминологической системе определены терминологическое выражение понятия, понятия, процесс их дефинитивизации и основные характеристики.

***Ключевые слова:*** *терминология, понятие, определение, определение, понятие, термин.*

***prof. Sayali Sadigova***

***Definitivity and understanding in the biological system definition process***

***Summary***

The article explores facts rich from a theoretical point of view in the process of definition and definition of a concept in a terminological system. It is noted that the requirements for terms in defining theoretical questions related to each area are determined in interaction with their correct expression of the concept and the process of definitivization. In the process of definition, the interpretation and nomenclature of the concept in the terminological system, the emergence and special function of terms in a certain area, their essence in terms of the functional-semantic area, the boundaries of development and place in the language system are analyzed. The definition of a concept included in a terminological system and associated with a certain area allows you to correctly understand its essence. This allows you to form a definition based on the main features of

the term, as well as on the basis of determining the characteristics characterizing its meaning and content. With this in mind, features distinguishing each term used in scientific fields from other terms, methods of definition or definitions based on refinement of differential manifestations are interpreted. A set of manifestations reflecting differential features allows you to cross out the boundaries of each concept and determine its location within the concepts. The terminological system defines the terminological expression of concepts, concepts, the process of their definitivation and the main characteristics.

***Keywords:*** *terminology, concept, definition, definition, concept, term.*

***Çapa tövsiyə edən:*** ***AMEA, Nəsimi adına Dilçilik İnstitutu, Terminologiya şöbəsi***

***Rəyçilər:*** ***professor Nadir Məmmədli***
***professor İkram Qasımov***